Vətən uğrunda canını qurban verənlər heç vaxt unudulmurlar

Bir** ilə yaxındır ki, Azərbaycan xalqı, bütövlükdə, dünya azərbaycanlıları Ermənistan üzərindəki tarixi qələbənin sevinci ilə yaşayır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz 30 illik işğala son qoydu və Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Bu gün hər birmiz on illər boyu gözlədiyimiz böyük Qələbənin sevincini yaşayırıq. Ərazi bütövlüyümüzün təmin olunması dövlətçilik tariximizi şərəfləndirdi, intizarında olduğumuz qələbənin sevincini yaşatdı. Haqq-ədalət uğrunda mübarizəmizin nəticəsi olan bu qələbə xalqımızı daha da bütövləşdirdi, mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. Bu möhtəşəm Qələbə dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Artıq biz qalib xalqın nümayəndələri olmağımızla, torpaqlarımızı hünər meydanında öz gücümüzlə, ordumuzun qüdrətiylə azad etməyimizlə fəxr edir və qürurlanırıq.

Bu illər ərzində nüfuzlu beynəlxalq qurumlar Ermənistan silahlı qüvvələrinin işğal altında saxladıqları Azərbaycan ərazisini qeyd-şərtsiz tərk etməsi barədə çoxlu sayda qətnamələr qəbul etsələr də, dünyada baş alıb gedən ikili standartlar və islamofobiya bu sənədlərin icra olunmasına imkan vermirdi. Özünü haqq-ədalətin, demokratik prinsiplərin carçısı kimi təqdim edən Qərbin və Avropanın bir sıra dövlətlərinin, habelə mötəbər təşkilatların Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə göz yummaları işğalçı ölkəni getdikcə daha da azğınlaşdırırdı.

Azərbaycan öz ərazilərinin işğal altında daimi qalmasına dözə bilməzdi. Ötən il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı başladığı müharibə onlara baha başa gəldi. Ordumuzun düşmənə layiqli zərbəsi qarşısında cəmi 44 gün davam gətirən işğalçı Ermənistan 2020-ci il noyabrın 10-da diz çökdü və kapitulyasiya aktını imzalamağa məcbur oldu. Söz yox ki, həmin vaxta qədər Azərbaycan Silahlı Qüvvələri bir neçə dəfə Ermənistan ordusuna layiqli cavab vermişdi. Xatırladım ki, 2016-ci ilin Aprel döyüşlərində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini darmadağın edərək 2 min hektardan artıq ərazimizi və bir sıra strateji əhəmiyyətli yüksəklikləri düşməndən azad etdi. Bundan iki il sonra – 2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasında baş vermiş Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında hərbi münaqişə zamanı Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya və Qaraqaya dağları azad olundu. Həmin əməliyyat zamanı Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Bütövlükdə, 11 min hektarlıq ərazi azad olundu.

2020 – ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin müxtəlif çaplı silahlardan və artilleriya qurğularından istifadə etməklə mövqelərimizə hücum etməsi ilə başlayan Tovuz əməliyyatı altı gün davam etdi və düşmən heç bir uğur qazanmadan yenə əvvəlki mövqelərinə çəkilməyə məcbur edildi. Bu əməliyyat zamanı üzləşdiyi məğlubiyyət də işğalçı ölkəyə ibrət olmadı. Aprel döyüşləri, Günnüt əməliyyatı və Tovuz döyüşləri ölkəmizdə xalq-dövlət-ordu birliyinin nümayişi oldu. Azərbaycan – Ermənistan dövlət sərhədində mütəmadi olaraq düşmən təxribatı nəticəsində başlayan döyüş əməliyyatları respublikamızda xalq-dövlət-ordu birliyinin monolitliyinin tərənnümü oldu. Dövlətimzin başçısı da həmin uğurların əsasında xalq- iqtidar birliyinin dayandığını bildirmişdi: "Mən hesab edirəm ki, son günlər ərzində baş vermiş toqquşmalar və qanlı döyüşlər Azərbaycan dövlətinin, Ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərdi". Dövlətimizin başçısının səsləndirdiyi bu fikir birlik, həmrəylik amilinə verdiyi dəyərin ən bariz nümunəsidir. Qələbəmizin əsas amillərindən biri də məhz bu oldu: xalqın, dövlətin və ordunun monolit birliyi.

Tovuz əməliyyatlarından bir neçə gün sonra Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqa növbəti müraciətində də birlik və həmrəylimiz yüksək dəyərləndirildi: "Hər kəsi saran birlik, ruh yüksəkliyi nümayiş etdirmək və tarixi həqiqətin təntənəsi, – Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hər bir addıma hazır olmaq, – bizim müqəddəs mübarizəmizdə güclü və təsirli vasitədir". Bu fikirlər xalqımızın, bütün dünya azərbaycanlılarının arzusunun, amalının, iradəsinin ümumiləşdirilmiş ifadəsi idi. Nəhayət, 30 illik işğaldan sonra hər birimizin böyük səbirsizliklə gözlədiyimiz ərazi bütövlüyümüz reallaşdı. 200 ildən çox davam edən erməni düşmənçilik siyasəti yerlə -yeksan edildi.

Ümumiyyətlə, ermənilərin xalqımıza qarşı düşmənçilik siyasətinin 200 ildən artıq tarixi var. Hələ çar Rusiyası zamanı əzəli Azərbaycan torpağı olan Qarabağa ermənilərin köçürüldükləri vaxtdan başlayan düşmənçilik siyasəti bu günə qədər davam edir. Ermənilər Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda məskunlaşdıqları ilk gündən həmin əraziləri özününküləşdirməyə başlamışdılar. Düşmən Azərbaycan toponimlərini dəyişməyə başlamış, münbit əraziləri ələ keçirməyə çalışmış, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırmışlar. Onu da qeyd edək ki, "böyük Ermənistan" dövləti yaratmaq iddiası ilə yaşayan ermənilər havadarlarının himayəsi ilə zərbaycanlılara qarşı etnik dözümsüzlüyü çar Rusiyasından sonrakı illərdə də davam etmişdir. Erməni qəsbkarlarının 1905-1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetirməsi, 1918-1920-ci illərdə xalqımıza qarşı törədilən xüsusi qəddarlıqlar yaddaşlardan heç vaxt silinməz. Həmin illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda, Göyçayda on minlərlə dinc azərbaycanlı əhali dəhşətli soyqırımına məruz qalmış, yaşadıqları yerlərdən zorla qovulmuş, onlara ağlasığmaz işgəncələr verilmiş, yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edilmişdir.

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından çıxarılması sovet dövründə də davam etmişdir.1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 min azərbaycanlı deportasiya olunaraq, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə daha 250 min azərbaycanlı öz doğma yurdundan qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının "dənizdən – dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir.

Ermənistanın qəddarlığı, faşizm ideologoyasına meyilliyi SSRİ- nin süqutundan sonra özünü daha açıq şəkildə büruzə verdi. Dinc azərbaycanlılara qarşı törədilən qətliamlar, terror aktları, təxribatlar davam etdirldi. Bunların içərisində Xocalı qətliamı xüsusi qəddarlığı ilə seçilir. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı həyata keçirmişdir. Bu zaman 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülmuş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmiş, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olmuşdur. Soyqırımı baş verən gecə 1275 nəfər dinc sakin girov götürülmüşdür və onlardan 150-sinin taleyi indi də məlum deyil. Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı cinayətdir.

Ermənilərin tarixi ərazilərimizdə həyata keçirdikləri soyqırımı siyasətinə ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilmişdir. Ulu öndərin 1998-ci ildə imzaladığı fərmanla 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. Müdrik şəxsiyyətin bütün sahələrdə siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasətinə son qoyulması, ərazi bütövlüyümüzün təmin olunması, ordu quruculuğunun daha da möhkəmləndirilməsi istiqamətində bütün imkanlardan səmərəli istifadə etdi. Dövlət başçımızın uğurlu siyasi fəaliyyəti nəticəsində Azərbaycan informasiya blokadasından çıxmış, Ermənistanın qəddarlığı, faşizm idealogiyasına sadiqliyi, işğalçı siyasətindən əl çəkməməsi, bir milyondan artıq soydaşımızın doğma ata-baba yurdundan didərgin salınması, beynəlxalq hüquq normalarına açıq hörmətsizliyi barədə dünya ictimaiyyətinə faktlarla məlumat verməsi haqq-ədalətin bərpa olunması istiqamətində atılan qətiyyətli addımlar idi.

On illər ərzində dünya birliyi bu ədalətsizliyə göz yumdu. 30 il davam edən beynəlxalq riyakarlıq, ikili standartlar mərəzi Ermənistanı daha da azğınlaşdırdı. Münaqişənin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupu münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həllinə yox, dondurulmasına çalışmış və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənilməsi, Ermənistana sanksiyalar tətbiq olunmaması nəticəsində mötəbər beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr kağız üzərində qalmışdır. Halbuki, bu illər ərzində öıkəmiz daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə, qan tökülmədən həllinə çalışmışdır. Hətta 1993- cü ildə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərini qeyd- şərtsiz tərk etmələri barədə 4 qətnamə qəbul edən BMT Təhlükəsizlik Şurası da işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmişdir. Təəssüf ki, bu mötəbər təşkilatın qəbul etdiyi qətnamələr 27 il kağız üzərində qalmış və icra olunmamışdır. Ötən il noyabrın 10- da Azərbaycan qazandığı tarixi qələbə ilə BMT TŞ –nın qətnamələrini özü icra etmiş oldu.

İldən – ilə ölkənin hərbi qüdrətinin artırılması istiqamətində bütün imkanlardan səmərəli istifadə edən Prezident, Ali Baş Komandan ordu quruculuğunu prioritet vəzifə kimi qarşıya qoydu. Məhz bu uğurlu siyasət nəticəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasına yükseldi. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması – bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir. Ötən il sentyabrın 27- də Ermənistanın ölkəmizə qarşı başladığı müharibə zamanı düşmən cəmi 44 gün davam gətirə bildi. Azərbaycan Ordusu Cənubi Qafqazın ən qüdrətli ordusu olduğunu döyüş meydanında bir daha təsdiqlədi. Son 18 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan islahatlar və bunun nəticəsi olaraq, baş verən keyfiyyət dəyişiklikləri şanlı qələbəmizdə özünü göstərdi. Müzəffər Azərbaycan Ordusu Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə tariximizə yeni şanlı səhifə yazdı.

Azərbaycan Ordusu hərb tarixində yeni döyüş taktikalarının müəllifidir. Bəzi aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müharibə Kollecinin və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, bizim qarşımızda, hətta dünyanın aparıcı ölkəsi olsaydı belə onun da heç bir şansı olmayacaqdı. Azərbaycan Ordusu dünyaya sübut etdi ki, istənilən vəzifəni icra etməyə qadirdir. II Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri də Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edirlər.

44 gün davam edən Vətən müharibəsi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və ordumuzun qəhrəmanlığı sayəsində şanlı Qələbə ilə başa çatdı. Ötən il noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladıqları Üçtərəfli Bəyanatla işğalçı Ermənistan kapitulyasiyaya məcbur edildi. Ertmənistanın 30 illik hegemonluğuna son qoyuldu və ölkəmizin ərazi bütövlüyü təmin olundu. Azərbaycan müharibənin əvvəlcədən sülhə məcburetmə əməliyyatının tərəfdarı olduğunu, qan tökmək və torpaq qəsb etmək məqsədi güdmədiyini bildirirdi. Məğlubiyyət bəyanatının Ermənistan tərəfindən imzalanması isə sülhə məcburetmə əməliyyatının uğurla bitməsinin təsdiqi oldu. Dövlətimizin başçısı dəfələrlə bəyan etmişdi ki, münaqişənin hərbi – siyasi həlli yolları var: "Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut etdi. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın".

Vətən yolunda canından keçən və sağlamlığını qurban verənlər heç vaxt unudulmur. İstər Birinci, istərsə də İkinci Qarabağ döyüşlərində şəhid və əlill olanlar, bu döyüşlərdə arxa cəbhədə fədakarlıq göstərənlər həmişə dövlətimzin diqqqət mərkəzindədirlər."Yaralanan döyüşçünün yarası hər bir azərbaycanlının yarasıdır. Mən hər zaman qazilərin yanında olacağam" – deyən Prezident İlham Əliyev, bu fikri ilə əslində, bütün müharibə iştirakçılarına olan münasibətini bildirib.

Ərazilərimizin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş Silahlı Qüvvələrin hərbi qulluqçuları Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmuşlar. Dövlət daim hər bir qazi və şəhid ailəsinin yanındadır. Ehtiyacı olan bütün qazilərə, şəhid ailələrinə dövlət tərəfindən lazımi kömək göstərilməkdədir. İndiyədək 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilmişdir. Həm Birinci, həm də İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə Bakıda, Sumqayıtda, Abşeron rayonunda bu ilin sonuna qədər mənzillər veriləcəkdir. Əlavə olaraq, müharibə əlillərinə 7200-ə yaxın minik avtomobili verilmişdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan xalqı şəhidlərimizin intiqamını düşməndən döyüş meydanında aldı. Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunəvi dövlətdir.

Səadət İSMAYILOVA,
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Nərimanov Rayon Qeydiyyat Şöbəsinin rəisi, ədliyyə müşaviri, hüquq üzrə fəlsəfə doktoru

Ermənistanın işğalçılıq siyasəti elan edilmədən başlayan müharibəyə, müharibə isə Azərbaycanın torpaqlarının işğalına səbəb oldu. Ermənistan BMT Təhlükəsizlik Şursının qəbul etdiyi qətnamələrə əməl etmədi, ATƏT-in Minsk qrupuna daxil olan dövlətlərin tövsiyələrinə, təkliflərinə məhəl qoymadı. Bunlara görə ona heç bir beynəlxalq təzyiq göstərilmədi. Belə loyal münasibətə görə Ermənistan mövcud status-kvonu saxlamaq məqsədi ilə danışıqlardan uzun illər yayındı.

27 sentyabr zəfərin başlanğıc tarixidir...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birmənalı şəkildə bildirdi ki, "Azərbaycan xalqı, Azərbaycan dövləti heç zaman Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməz". Bu qətiyyət Ermənistanı da, onun havadarlarını da niyyətindən çəkindirməli idi. Lakin Ermənistan yeni ərazilər işğal etmək niyyəti ilə torpaqlarımıza hücumları davam etdirdi. Azərbaycan Ordusunun hissələri bu hücumların qarşısını qətiyyətlə alırdı. 2016-cı ilin aprelində də belə oldu, 2020-ci ilin iyulunda da.

Ermənistan ordusu ötən il sentyabrın 27-də müxtəlif istiqamətlərdən müxtəlif təyinatlı silahlarla yenidən hücum etdi. Azərbaycan Ordusnunun hissələri bu hücumun qarşısını qətiyyətlə aldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə ordumuz əks-hücum əməliyyatına başladı. Bu, Vətən müharibəsi idi.

Düşmən işğal etdiyi ərazilərdə müdafiə sistemi yaratmışdı, onu illərlə möhkəmlətmişdi, təkmilləşdirmişdi. Yaratdığı "Ohanyan səddi" ilə qürurlanırdı, ordusunu və əhalisini inandırmağa çalışırdı ki, Azərbaycan Ordusu bu səddi keçə bilməz. Vətən müharibəsində Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu düşmənin müdafiə səddini darmadağın etdi. Müxtəlif istiqamətlərdə gedən döyüşlərdə düşmən ağır məğlubiyyətlərə uğrayırdı. Düşmənin ordusu müqavimət göstərə bilmirdi, döyüşlərdən geri çəkilirdi, hərbçiləri döyüşdən yayınırdı, qaçırdı. Bu, düşmənin məğlubiyyətini yaxınlaşdırırdı.

Xalqımız ordumuzun qələbəsinin iştirakçısı idi. Bütün səviyyələrdə orduya mənəvi və maddi dəstək göstəririlirdi. Vətən müharibəsində analar cəbhəyə, döyüşən orduya həm ana sevgisiylə hazırladıqları yeməklər, həm də əlcək, şərf və s. toxuyub göndərirdi. Döyüşçülərin bunlara ehtiyacı yox idi, ancaq bu hədiyyələr onların döyüş əzmini, qələbə ruhunu kükrədirdi. Bir ana göndərdiyi hədiyyələrin içinə məktub da qoyubmuş: "Oğlum Birinci Qarabağ müharibəsində şəhid oldu. Onun paltarlarını indiyə kimi saxlayırdım. İndi oğluma qardaş bildiyim sən əsgər oğluma göndərirəm. Mənə oğlumun dərdini qazanacağınız qələbə unutduracaq, oğlum. Qələbədən sonra qarşıma çıxan ilk əsəgərə oğlum deyəcəm. Onda oğlumun ruhu da sənə – əsgər qardaşına sağ ol deyəcək...". Bu məktub Vətən müharibəsinin mahiyyətinin nə olduğunu bütün çalarlarıyla açır. Yəni Vətən müharibəsi xalqın müharibəsi idi. Hamı özünü döyüşənlərin sırasında hiss edirdi...

2020-ci ilin 27 sentyabrı son 30 ilin ən yaddaqalan tarixi günlərindən biridir. İşğalçı dövlət sülh danışıqlarından yayınırdı, beynəlxalq təşkilatlar bu danışıqların baş tutmasını təmin edə bilmirdi. Dünyanın aparıcı dövlətləri də müəyyən məqamlarda işğalçının mövqeyinə ciddi etirazını bildirmirdi. Əksinə, bəzən işğalçı dövlətə havadarlıq edirdilər, onu silahlandırırdılar.

Vətən müaharibəsi ərəfəsində Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar dedi: "Azərbaycan torpaqlarını işğal edən Ermənistana qarşı Azərbaycanın yanındayıq. Azərbaycan tək deyil". Bu səmimi fikir Vətən müharibəsində reallaşdı. "Bayraktar"lar düşmənin müdafiə sədlərini, qruplaşmalarını, strateji mövqelərini, canlı qüvvəsini darmadağın etdi. Nə düşmən, nə də onun havadar-ları bu hücumu dayandırmaq gücündə, qüdrətində deyildi.

Azərbaycan Ordusu qətiyyətlə döyüşürdü. Müxtəlif istiqamətlərdə qazanılan mövqe qələbələri ordumuzu son döyüşə yaxınlaşdırırdı.

Vətən müharibəsindən sonra dünya mətbuatında müxtəlif səpkili, məzmunlu məqalələr dərc edildi. Əksəriyyətində Azərbaycan Ordusnunun gücü, qüdrəti etiraf edilir, əsəgərlərimizin döyüş əzminə, qələbə ruhuna heyrət ifadə olunurdu. "400 nəfər görürdük. Atəş açılırdı, onun ardınca daha bir qrup gəlirdi. Atəş açılırdı, ardınca ikiqat böyük qrup dalğa halında gəlirdilər. Əlbəttə ki, belə bir qüvvəyə tab gətirmək mümkün deyil", – bu fikirlər muzdlu erməni döyüşçüsünün etirafıdır.

Vətən müharibəsi vətənpərvərliyin işğalçılıqla, azərbaycançılığın ermənilikə döyüşü idi. Bu müharibə xalqın qələbə ruhunun müharibəsiydi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq". Bu zəfərin başlanğıcı Cənab Prezidentin qətiyyətindədir, xalqa sevgisindədir, dövlətçiliyə sədaqətindədir, xalqın orduya dəstəyindədir. Bu zəfərin başlanğıcı tarixi olaraq 27 sentyabrdır. Bu tarixi zəfərlə Ermənistanın işğalçılığına son qoyuldu. Azərbaycan Ordusu Ermənistanın ordusunu darmadağın etdi.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının həm siyasi, həm də iqtisadi əhəmiyyətə malik olduğunu hamı bilir və buna bir ürək tutumunca sevinir. Ölkə başçısı Kəlbəcərə və Laçına səfərindəki çıxışında dedi: "...Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün addımdır. Bu, həm tarixə əsaslanır, eyni zamanda, gələcəyə əsaslanır. Çünki həm Qarabağ, həm də Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi...". İndi dünya qalib Azərbaycan dövlətinin qüdrətinin konturlarını daha əhatəli görür.

Prezident İlham Əliyev Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində çıxışında qürurla bildirdi ki, Vətən müharibəsində qazandığımız zəfər dünyanın aparıcı dövlətlərinin diqqət mərkəzindədir: "Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində bizim müharibəmiz, İkinci Qarabağ müharibəsi öyrənilir". Deməli, Vətən müharibəsinin timsalında Azərbaycanın yeni tarixi dünyada öyrənilir.

Həmin mərasimdə dövlət başçımız Ermənistanın işğalçı dövlət olduğunu bir daha xatırladaraq dedi: "Onlar bütün strateji yüksəkliklərə sahib idilər. Əlbəttə ki, 30 il ərzində onların qurduqları istehkamlar, 6 müdafiə xətti və mühəndislik işləri onlara böyük üstünlük verirdi. Onlar hesab edirdilər ki, bu müdafiə xəttini, bu istehkamları, bu dağları biz heç vaxt keçə bilmərik. Amma onlar yanıldılar, böyük yanlışlığa, səhvə yol verdilər. Onlar bilmirdilər ki, Azərbaycan xalqı bu 30 il ərzində bir amalla yaşayır: nəyin bahasına olursa-olsun, torpaqlarımızı işğalçılardan azad edək. Biz bu amalla yaşamışıq. Bizi qələbəyə aparan təkcə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, hərbi texnikamız yox, bizi qələbəyə aparan Vətən sevgisi idi. Ən başlıca faktor, ən başlıca amil Vətən sevgisi idi".

Vətən sevgisi Azərbaycan Ordusunun şəxsi heyətinin malik olduğu mənəvi dəyərləri ümumiləşdirir. Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş hazırlığını yüksək mənəvi-psixoloji hazırlıq tamamlayır. Bu vəhdət ordunun gücü deməkdir. Ordumuz güclüdür. Bu güc Vətən müharibəsində qətiyyətlə təsdiqləndi. 27 sentyabr buna görə yeni tariximizdə unudulmayacaq tarixi gündür...

Ordumuz torpaqalarımızı işğaldan azad etdi. Bu zəfərin həm böyük hərbi dəyəri oldu, həm də böyük siyasi dəyəri danılmazdır. Dünya dövlətləri Vətən müharibəsindən sonra Azərbaycanla daha sıx ikitərəfli iqtisadi əlaqələri davam etdirməyə, genişləndirməyə maraq göstərir. Güclü dövlətlə belə əlaqələr həmişə tərəfdaşa səmərə verir.

Bu yaxınlarda bir əsgərin inamla, qətiyyətlə dediyi Vətən sevgisi ilə dolu bir fikri xatırlayıram: "Daha heç bir işğalçı dövlət Azərbaycanın torpaqlarına göz dikə bilməz. Hamısı Azərbaycan Ordusunun gücünü, qüdrətini gördü...". Bu fikir hamıya həm xoş gəldi, həm də hamı belə düşünən əsgərlərimizlə qürurlandı...

Dünya gördü ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etdi, Azərbaycan gəncliyi işğaldan azad edilmiş ərazilərimizdə şəhərləri, kəndləri yenidən quracaq.

Şuşada "Xarı bülbül" musiqi festivalı keçirildi...

Şuşada Vaqif Poeziya Günləri keçirildi...

Şuşada Milli Musiqi Günü keçirildi...

Bunlar Vətən müharibəsində Azərbaycan əsgərinin qazandığı zəfərin nəticəsidir. Zəfərin başlanğıcı 27 sentyabrdır... O gün Milli qürur günüdür!

Səbinə XASAYEVA,
Milli Məclisin deputatı